## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq qərara alıram:

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 dekabr 2023 cü il*

## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi ilə əlaqədar kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması üçün yerlərin ayrılması haqqında

Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 75-ci, 86-cı maddələrinə, "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin VI bəndinə və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.15.2 maddəsinə əsasən "Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin" 6.8-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi ilə əlaqədar kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması üçün Qəbələ şəhəri ərazisində qapalı yer (tutumu 400 nəfər) Qəbələ Mədəniyyət Mərkəzi, açıq yer (tutumu 5000 nəfər) Qəbələ Olimpiya İdman Kompleksinin stadionu ayrılsın.

2. Qəbələ Mədəniyyət Mərkəzinin və Qəbələ Olimpiya İdman Kompleksinin direktorlarına tapşırılsın ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi ilə əlaqədar kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması üçün müvafiq şəraitin yaradılmasını təmin etsinlər.

3. Sərəncam "Qəbələ" qəzetində dərc olunsun.

4. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Səbuhi Abdullayev**

**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı**

*Qəbələ şəhəri, 29 dekabr 2023-cü il*

# Səyyar qəbullar


Zarağan kəndi.



Həyatda yaşayan hər kəs özünəməxsus bir tərzdə çətinliklərlə, problemlərlə qarşılaşır. Yaşadığı dövrdə isə onları həll etmək üçün mübarizə aparır. Bəzən elə problemlərlə qarşılaşır ki, onun həlli tək özünün mübarizəsi ilə həll oluna bilmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin yanvar ayının əvvəlində səyyar qəbullar Zarağan və Həmzəli kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.


Həmzəli kəndi.



**"Qəbələ"**

**Fotolar S. Umuyevindir.**

# Lideri güclü olmayan dövlətlər məğlubiyyətə məhkumdur

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsini ölkəmizin son 20 illik tarixinə baxış nöqteyi-nəzərdən qısa hesabat və ən əsası növbəti 20, 30 illik, hətta 100 illik hədəflərinin müəyyənləşdirilməsi üçün yol xəritəsi adlandırsaq, yerinə düşər. Dövlət başçısının həmişə olduğu kimi, yenə də həm dünya, həm də ölkə ictimaiyyətinə çatdırdığı vacib mesajlar bir çox mətləblərə aydınlıq gətirdi. Bu zəruri məqamlardan saatlarla, danışsaq və yazsaq da yenə zaman yetməz.

Birinci məqam təbii ki, onun şah əsəri olan Xankəndi Zəfərindən sonra Qarabağın separatçı-terrorçulardan tam təmizlənməsi ilə ilk dəfə ərazi bütövlüyümüzün, suverenliyimizin təmin olunması, konstitutsiya hüququnun bütün ölkə ərazisində təsbit olunması, dövlət bayrağının şimaldan cənuba, şərqdən qərbə qədər hər bir rayon, kənd-qəsəbələrdə dalğalandırılmasıdır. Ənənəsinə sadiq qalan Müzəffər Ali Baş Komandan təvazökarlıq edərək yenə öz tarixi xidmətlərini arxa plana keçirib, bu böyük Qələbənin qazanılmasında başda şəhid və qazilərimiz olmaqla cəmiyyətimizin bütün təbəqələrinin müəyyən rolunun olduğunu xüsusi vurğuladı: "...bu böyük Zəfərin əldə olunmasında hamımız iştirak etmişik, hərə öz yerində, siz media nümayəndələri kimi, mən Ali Baş Komandan kimi, xalqımızın bütün təbəqələri öz işi ilə bu Qələbəni yaxınlaşdırırdılar. .... Gücümüz, cəmiyyətimizin birliyi, xalqımızın birliyidir və bu birlik olmasaydı, biz heç vaxt müharibəni uda bilməzdik. Birmənalı sizə deyirəm. Çünki bu Zəfəri şərtləndirən xalqın ruhu idi və əsgəri qabağa göndərən də xalqın ruhu idi, onun tərbiyəsi idi. Nə qədər silahın olsa, nə qədər ordun peşəkar təlimlərdə olsa, əgər ruh yoxdursa, heç bir təpəni də sən götürə bilməzsən...". Amma təcrübə göstərib ki, lideri güclü olmayan dövlətlər, ölkələr və xalqlar məğlubiyyətə məhkumdur. Bu məsələdə dövlət başçısının tarixi xidməti həm də onunla izah olunur ki, bizim yaşadığımız dövrdə yaranan problemin heç bir iştirakı və məsuliyyəti olmayacaq gələcək nəsillərə saxlanılmamasıdır. Çünki aydın məsələdir ki, 30 illik mənasız danışıqların bir məqsədi var idi ki, Qarabağı Azərbaycandan qoparıb Ermənistana versinlər. Ona görə dövlət başçısının vurğuladığı kimi, müxtəlif bəhanələr altında - Ermənistanla əməkdaşlıq, insanları, cəmiyyətləri sülhə hazırlamaq üçün müxtəlif QHT-lər vasitəsilə təmasların yaradılması, məhz o niyyətə hesablanmışdı ki, Azərbaycanda yetişən gənc nəsil bu məsələdə fərqli istiqamətdə formalaşsın. Ancaq cənab İlham Əliyevin siyasətinin böyüklüyü ondadır ki, bu problemi ümummilli bir məsələyə, ümummilli hərəkata çevirdi və indi ermənidən çox ermənilik edən ABŞ, Fransa, Almaniya kimi bəzi güc mərkəzlərinin, beynəlxalq təşkilatların 30 illik səylərini puç edib bu ana mövzumuzu xalqına unutdurmağa imkan vermədi. Onun isə bu məsələdə bir məqsədi, bir amalı olub ki, yetişən gənc nəsil vətənpərvər olsun, heç vaxt bu ədalətsizliklə barışmasın və əgər bizə nəsib olmazsa, o zaman bu tarixi ədaləti heç olmasa gələcək nəsillər edə bilsinlər. Ancaq bunu öz dövründə həll etməklə, həm də bizi gələcək nəsillərin qınağından xilas etdi.

İkinci diqqəti cəlb edən məqam bu il fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkiləri ilə bağlı məsələyə birinci şəxsin dilindən aydınlıq gətirilməsi idi. Bu ali seçkinin keçirilməsini zəruri edən səbəbi, əlbəttə, prezident də təsdiq etdi ki, bu son 200 ildə ilk dəfə bu həcmdə əldə olunan Böyük Zəfərlə əlaqədardır. Ona görə bu seçkilər təsadüfən Zəfər seçkisi adlandırılmayıb. Qalib lider haqlı olaraq məqsədəuyğun sayır ki, prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğuna görə bütün ərazilərdə keçiriləcək ilk seçki də məhz o olmalı idi. Bunu görməzdən gələn bəzi radikal kəsimin spekulyasiyaya cəhd edərək, əmr aldıqları sahiblərinin diktəsi ilə irəli sürdükləri yalan dolu mülahizələr öz acı məğlubiyyətlərindən diqqəti yayındırmaq cəhdləridir. İndi ictimaiyyəti seçkilərə əvvəlki maraq və həyəcanın olmamasında günahlandırmaq istəyirlər. Əvvəla, aktiv təbliğat və təşviqata yanvarın 15-də start veriləcək. Ondan sonra maraq da ikiqat artacaq. Digər tərəfdən isə boş, mənasız həyəcanı yaradan sizlər idiniz ki, bu dəfə məğlub olacağınızı bilib, ümumiyyətlə, prosesə qatılmamaqla, tək sizə və havadarlarınıza lazım olan daxili qarşıdurma planlarınızı da ruhunuzla birlikdə dəfn etmisiniz. Ən əsası da qədirbilən xalqımız artıq son 20 ildə verdiyi bütün vədləri yerinə yetirən, onları təxmin etmədiyi hədəflərə çatdıran liderini indidən qalib edib, sadəcə fevralın 7-də sədaqət borcunu rəsmi şəkildə təsdiqləyəcəklər, ona görə əlavə maraq və həyəcan yaratmağa lüzum görmürlər.

Müsahibə zamanı Prezident İlham Əliyevin aydınlıq gətirdiyi bir qeyri-müəyyənlik Azərbaycan-Ermənistan sülh danışıqlarında mümkün olan sərhədlərin delimitasiya və demarkasiya məsələsində hansı xəritələrin əsas götürülməsi ilə bağlı idi. Bu məsələdə ermənilər və onların bəzi xarici yandaşları tərəfindən ötən əsrin 70-ci illərinin xəritələrinin əsas götürülməsi daha çox qabardılır. Prezidentin fikirlərindən bir daha məlum oldu ki, məhz bu tarixə qədər sovet hakimiyyəti tərəfindən Azərbaycanın tarixi torpaqlarının hissə-hissə qoparılıb Ermənistana verilməsi prosesi başa çatdırılıb. Onun üçün Ermənistanın başsız başçıları həmin xəritələri əsas götürmək istəyirlər

**(Ardı 4-cü səhifədə).**